# Həzrət Əli (ə) və Fatimeyi Zəhranın (s.ə) evlilik həyatından alınan dərslər:

Sözdə və əməldə sədaqətli olmaq, qarşılıqlı güvən.

Evlilik zamanı hər iki tərəfin razılığını almaq,



İctimai həyatda ailə üzvlərinin haqlarına əhəmiyyət vermək, hüquqlarını qorumaq

Yaşayışda sadəliyə əməl etmək və asan tutmaq

Bir-birinin müəy-yən səhvlərini bağışlamaq, güzəşt -li davranmaq

Ev işlərində işlərin bölgüsü və müştərək çalışmaq

Vəfadarlıq, fərdi və ictimai problemlər qarşıya çıxdığı zaman bir birinin yanında olmaq, dəstək vermək

Öhdəsindən gəlinə bilinəcək məsuliyyətləri götürmək və qarşı tərəfdən gözləmək

# NƏ ÜÇÜN DİNİ MƏRASİMLƏR KEÇİRİRİK?



*Bu gün cəmiyyətdə ünvanlanan suallardan biri də məhz dini mərasimlərin keçirilməsi ilə bağlıdır. Məzhəbindən aslı olmayaraq günümüzün insanları Qurban və Ramazan bayramlarından əlavə, Peyğəmbər (s) və Əhli-beytinin (ə) təvəllüd günlərini və eləcə də şəhid olduqları günləri qeyd etməyin mahiyyəti və faydası haqda maraqlanırlar.*

*Lakin burada təəssüf olunası məqam budur ki, bəzən belə mərasimlərin mahiyyəti və faydası barədə maraqlanan insanların eşitdikləri cavab yalnız bu mərasimləri keçirmənin fəziləti barədə olan hədisləri səsləndirməkdən və ya tövsiyələrdən ibarət olur. Bu gün bu mərasimlərin qeyd olunmasının mahiyyəti və faydası barədə geniş şəkildə məlumata və maarifləndirməyə ehtiyac vardır.*

*Burada belə mərasimlərin qeyd olunaraq yad edilməsinin məqsəd, mahiyyət və faydalarına bir neçə aspektdən nəzər salaq:*

**1. Dini və mənəvi aspekt**

Mərasimləri keçirmək ilahi bir tapşırıqdır. Necə ki, Qurani-Kərimdə oxuyuruq: "... Allahın) günlərini xatırlat. Bunda çox səbr və şükür edənlər üçün, sözsüz ki, neçə-neçə ibrətlər var!" (İbrahim,5)

Bütün zamanlar Allaha məxsus olsa da bu ayədə Allahın xüsusi günlərindən məqsəd o günlərdir ki, onda mühüm hadisələr baş vermişdir. Allah və elçisi yada düşmüş, xatırlanmışdır.

Həmçinin Peyğəmbərimizn (s) risaləti qarşısında Onun (s) Əhli-beyt üzvlərinə sevgi və rəğbət göstərmək də Qurani-Kərimdə qeyd olunubdur:

"...(Ya Peyğəmbər!) De: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) qarşılığında Əhli-beytə sevgidən başqa bir şey istəmirəm. Kim bir yaxşı iş görərsə, onun yaxşılığının savabının (mükafatını) artırarıq!".

Hədislərdə də bizə çatdırılıb ki, sevgi göstərdiklərimiz unudulmamalı, onların şad günündə şadlanmalı, kədərli günlərində də kədərlənməliyik. Demək, normal həyatda yaxınlarımız və dostlarımızla olduğu kimi Peyğəmbər və Əhli-beytinin təvəllüd və şəhadət günlərini mərasim şəkilində keçirməklə onlara sevgi elan edilir, onların səf və sırasında olmağa çalışıldığı bildirilmiş olur.

Necə ki, Hz. İmam Əli (ə) bu haqda buyurur: "Bizim tərəfdarlarımız bizə dəstək olurlar. Sevincimizə sevinir, hüznlərimizə kədərlənirlər. Canları və malları ilə bizim üçün çalışarlar. Onlar bizdəndir, bizdən yanadır". (Bəharul-ənvar, c.65, səh.18)

**2. Təlim və tərbiyə aspekti**

Peyğəmbər (s) və Əhli-beytini (ə) yaşatmaq və anmaq məqsədi ilə mərasimlərini keçirmənin təlim və tərbiyə baxımından da çox faydası vardır:

a) Dini önəmli şəxsiyyətlərimizin cəmiyyətin yaddaşında daim yaşaması üçün.

b) Dinimizin və Qurani-Kərimin düzgün anlamı yönündə Peyğəmbər və Əhli-beytinin fikirlərini öyrənmək və kəlamlarından ibrət alınması baxımından.

c) Canlı İslam və Quran olan bu şəxslərin sirə və həyat tərzlərinin insanlara örnək kimi tanıtdırılması üçün.

d) Onların Allah və dinimizin yaşaması üçün mübarizələri, amal və məqsədlərinin cəmiyyətdə qorunması və yaşadılmasından ötrü.

Bəzən hadisələr onda olan ibrət və dərslərdən dolayı bir məktəbə çevrilir. Məktəb də yaşamağı labüd edir. Hadisənin qəhramanlarının kimliyi və qoyduğu əsərin dəyər və əzəməti də onun zaman və məkan məhdudiyyətindən xaric edərək əbədiləşdirir.

Biz Peyğəmbər və Əhli-beytin kiçik yaşlarından həyat və davranışlarından elm, ədalət, fədakarlıq, səbr, iradə, ixlas, şücaət, qeyrət, ədalət və s. kimi dini və insani dəyərlər öyrənirik.

Bu mərasimlər qeyd olunmaqla insanların qəlblərindəki haqqa olan məhəbbəti və batilə olan nifrəti daha da qətiləşmiş olur.

Bu mərasimlər insanların nəzərində Peyğəmbər (s) və Əhli-beytinin (ə) yol və məqsədini canlandırır. Bu canlanma əslində həmin ali məqsədlərə tərəf bir təşviqatdır. Onların hədəfi ümmətin islah olunması, həqiqi İslamın qorunması, batilin həqiqi kimliyinin üzə çıxarılması, batilin necə çirkin bir mövqe olduğunun sübut olunmasıdır.

Belə mərasimlər bizə Allahın qüdrətinə, izzətinə, əzəmətinə sığınaraq, ixlaslı bir niyyətlə və Allah övliyasının əlindən tutaraq hansı ali insaniyyət məqamlarını fəth etməyin mümkünlüyünü əyani olaraq anlatmış olur.

**3. Tarixin yaşadılması aspekti**

Tarixdə mühüm şəxsləri yaşadan onların etdikləri, bəşəriyyətə töhfələr verdiyi əsərləri, ixtira və kəşfləridir. Buna görə də onları yaşatmaq onların yolunun və sahəsinin yaşamasına gətirib çıxarır. Məsələn, nə qədər ki, Azərbaycan dövləti var, Nizami Gəncəvi, Füzuli, Mirzə Ələkbər Sabir və s. xatırlanmalı, anılmalıdır. Çünki onları yaşatmaq əslində Azərbaycan klassik ədəbiyyatını yaşatmağa xidmət edir. Eləcə də, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban verən şəhidlər unudulmamalıdır. Çünki məlum olduğu kimi, Azərbaycan xalqının azad, suveren və rifah içində yaşamasında onların fədakarlığı olub.

Tarixdə hər hansı hadisənin bir daha baş verməməsi üçün hadisəni törədən səbəblərin daim diqqət mərkəzində saxlanılması üçün də gələcək nəsillərə dərsliklərdə qeyd etməklə, tədbirlər və konfranslar keçirməklə yaşatmaq lazımdır. Çünki tarixdən dərs almamaq bir daha yaşamasına şərait yaradar. Bir də ki, o şəxsiyyətləri yaşatmaq elə bizim həyat tapmamız, insanlıq və dəyərlərimizin inkişafı baxımından faydalıdır.

Qurani Kərimin bəzi hissələrində, Allah bizə ilahi şəxsiyyətləri yad edib, xatırlamağı tövsiyə edir. "Məryəm" surəsində (ayə 41) buyurulur: "Kitabda İbrahimi də an! Həqiqətən, o, çox dürüst bir insan və Allahın peyğəmbəri idi." Sonra onun büt və bütpərəstliklə ciddi və barışmaz mübarizəsi bəyan olunur. Digər bir ayədə, (Məryəm surəsi 56-57) buyurulur: "Kitabda (Quranda) İdrisi yad et; o, çox düz danışan və (böyük) peyğəmbər idi, Biz onu yüksək məqama çatdırdıq." Bunun ardınca ilahi nemətlərdən bəhrələnən sair peyğəmbərlərin adı çəkilir. Başqa bir ayədə isə (Sad surəsi 41-43) buyurulur: "Bizim bəndəmiz Əyyubu xatırla, o zaman ki, Rəbbini çağırdı (və dedi:) "Pərvərdigara! Şeytan məni əzab-əziyyətə salmışdır." (Ona dedik:) "Ayağını yerə vur, sənin üçün içmək və yuyunmaq üçün sərin su çıxar." Ailəsini də ona bağışladıq və onun mislini ona əlavə etdik ki, Bizim tərəfimizdən bir rəhmət, düşüncə sahibləri üçün bir xatırlatma olsun."

Gördüyümüz kimi müqəddəs Qurani Kərim bizə ilahi şəxsiyyətləri xatırlamağı tövsiyə edir. Çünki onlardan ibrət almaq, başlarına gələnləri eşidərək, düşünmək üçün onları xatırlamağa ehtiyac vardır. Belə görkəmli və tarixi şəxsiyyətlərin xatirəsi əziz saxlanılmalı, onların gözəl məram və bəyanları, əxlaqi səciyyəli xüsusiyyətləri, ictimai mövqeləri daima diqqət mərkəzində olmalıdır.

Sonda çox təəssüflə qeyd olunmalı məqam budur ki, əsrlərdir dünyada kifayət qədər Peyğəmbər və imamların, ziyarətinin, onlara həsr olunan mərasimlərin və əzadarlığının əleyhinə istər fiziki, istər hüquqi və istərsə də ideoloji mübarizə aparılmaqdadır. Bəziləri bu şəxsiyyətləri və hadisəni xatırlamağı bidət və lazımsız hadisə kimi təqdim edərək, insanları bu mərasimlərdən soyutmağa çalışır. Bu keçmişdə də olub, bu gün də davam etməkdədir.

Ancaq narahat olmağa dəyməz. Onların ədalətsiz saldırılarına baxmayaraq bu faydalı ənənə keçmişdən bu günümüzə gəlibsə, demək ki, heç nəyə nail ola bilməmişlər. Olmayacaqlar da. Çünki şəxsiyyətləri yaşadan da elə Yaradan özüdür.

***Hacı Ramin İgidov***





# MƏSUMLUQ İLƏ İMAMLIĞIN FƏRQİ

***Məsumluq ilə imamlığın fərqi nədir? Hər məsum imam deyil. Bəzi alimlər deyirlər ki, bir sıra insanlar var məsumdurlar, lakin imam deyillər. İmamlıq Allah ilə bəndə arasında xüsusi əhdpeymandır. Çünki imamlıq birbaşa Allah tərəfindən verilir. İmamlıq Ali Baş Komandan tərəfindən zabitlərin birinə generallıq verilməsinə oxşayır. İmamlıq əta olunur, bəxş olunur. İnsan bir səviyyəyə çatdıqdan sonra Allah onu həqiqi mənada seçir. Ayədə buyurulur ki, Allahın əhd-peymanı olan imamlıq məqamı zalımlara çatmaz. İmamlar da zalım olmayanların içindəndir. Bu ayə buyurmur ki, bütün məsumlar imamdır. Amma buyurur ki, qeyriməsumlar imam ola bilməz. Yəni Allah imamı məsumların içindən seçir.***

Şeytan Adəmə səcdə etmədi. Özünə zülm etdi, zalım oldu. Hədislərdə qeyd olunur ki, şeytan təkid edirdi ki, "Allah, sənə nə qədər istəyirsən səcdə edim, amma Adəmə yox." Allah-Taala isə nə cavab verdi? Buyurdu: "Sən Rəbbinə üsyan etdin". Necə olur ki, şeytan Rəbbinə üsyan etdi? Halbuki o, Adəmə üsyan etmişdi. Amma Allah-Taala buyurur ki, şeytan sözümdən çıxdı.

Allah Taala mənə buyurur ki, "qələmlə yaz!" Qələmlə yazmasam, Allah-Taalanın sözündən çıxıram. Allah-Taala mənə buyurur ki, imamını tanı, imamı bağışlanmaq vasitəsi seç. Qurani-Kərimdə buyurulur ki, peyğəmbərin yanına gedin, peyğəmbər sizin üçün bağışlanmaq istəsin. İndi mən getməsəm bu ayəylə zidd hərəkət etmiş oluram. Bu ayəyə əsasən Allah mənə peyğəmbərə müraciət etməyi əmr edir. Bu ayrı bəhsdir ki, niyə müraciət etdirir? O haqda danışmırıq hələ.

Onlar (münafiqlər) özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən, mərhəmətli olduğunu bilərdilər. (Nisa, 64)

Bəhsimiz zalımlar haqqında idi. Allah buyurdu ki, mənim əhdim zalımlara çatmaz. Zalım kimə deyirlər? Oxuduq ki, Quran ayələrində günah edənə zalım deyirlər. Allaha şərik qoşan da zalımdır. Loğman surəsində ayə var ki, şirk böyük zülmdür. Camaata zülm edirlər, özlərinə zülm edirlər. İnsan özünə zülm etsə də zülmdür, camaata zülm etsə də zülmdür, Allaha şərik qoşsa zülmdür, yəni şirk də zülmdür. Bəhsimiz budur ki, biri dünən zalım idi, indi tövbə edib. Buna imamlıq çatar yoxsa yox? Dünən büdpərəst idi, indi müsəlman olub. Şirk böyük zülmdür. Müşrik halında imam ola bilməz. Qeyri-müşrik halında imam ola bilər yoxsa yox? Qeyd etdiyimiz ayənin məntiqinə əsasən zülm edənə imamlıq çatmaz. Bu qanun hal-hazırda zülm edənə aiddir, yəni hazırkı halında zalım olana aidddir, yoxsa ümumiyyətlə həyatı boyunca bir dəfə zülm etsə zalımdırmi? Yəni bir nəfər ömrü boyunca bir dəqiqə, bir gün, bir il müşrik olub sonra tövbə etsə

Allah onun tövbəsini qəbul edərmi? Edər! Çünki Allah bəndələrindən tövbəsini qəbul edər, lakin onu Allah imam etməz.

Fərz edək mümkündür ki, bir nəfər tövbə edir, günahları bağışlanır, imam da ola bilir. Görək hansı fərziyyə düzgündür. Ayənin mənası hansıdır? Bir şəxs hal-hazırda zülm etmirsə imam ola bilər, yoxsa bir zaman zalım adı daşıyana imamlıq çatmaz? Biz deyirik, ayənin mənası budur ki, bir şəxs həyatı boyunca zülm edibsə, yəni yaşadığı müddətdə hər-hansı bir vaxt zülm edibsə bu insan imam ola bilməz. Sonradan tövbə etsə də, etməsə də. Tövbə etməyibsə aydındır ki, imam ola bilməz. Çünki hal-hazırda zalım sayılır. Hətta tövbə etsə də imam ola bilməz. Yəni halhazırda zalım olmasa da, həyatında nə vaxtsa zalım olduğu üçün ona imamlıq məqamı verilməz. Ola bilər ki, Cənnətə getsin, lakin müsəlmanların imamı ola bilməz.

Bu ayədə buna iki dəlil var. Birincisi ərəb dilində "əlif lam"ın müxtəlif mənaları var. Yəni bir ismin, sözün əvvəlinə "əl" gətirdikdə mənası dəyişir. Məsələn, kitab, əl-kitab. Yəni müəyyən bir kitab. Bəzən müəyyənliyi bildirir. Lakin cəmdə olan sözə "əlif lam" əlavə olunsa müəyyənliyi bildirmir, ümumiliyi bildirir. Ümumilik iki cürdür. Bir ümumilik hamı bir yerdə olandır, bir ümumilik isə cəm mənasındadır. Bir də məcmuən ümumilik var. Elə bil deyirik ki, filankəs xəstə idi, mən dostların hamısı ilə birlikdə onun ziyarətinə getdim.




Bu da bir ümumilikdir. Yaxud deyirik ki, filankəs xəstə idi, dostlarımız hamısı onun ziyarətinə getdi. Birlikdə yox. Hamısı. Ola bilər ki, ayrı-ayrı gediblər. Buna deyirlər "cəmiən". Ona isə deyirlər "məcmuən". "Məcmu", yəni "hamısı bir yerdə". "Cəmi", yəni "hamısı", lakin bir yerdə olmaya bilər. Zalimin də mənası budur. "Əz-zalimin", yəni "cəmi zalımın"- "zalimlərın hamısı", "hər kəs ki zalim olub haçansa". Zalimlik nümunəsi olan bütün adamlar imam ola bilməzlər. Daha dəqiq desək, həyatında bir dəfə də olsa, zalimlik adına layiq olan kimsə imam ola bilməz. İstər çox keşmişdə zalim olsun, fərqi yoxdur hər kim, tarix boyu zalim adını daşıyıbsa, o imam ola bilməz. İstərsə də bu gün zalım siyahısındadır, istərsə 10 il qabaq, istərsə də 100 il qabaq. Hər kim ki, zalim dəftərinə düşüb, bir zamanlar "əz-zalimin" nümunəsi o olub, ona imamlıq məqamı verilməz. Hələ o tövbə etsə də imam ola bilməz. Tövbə etmək onu o zamanın zalim ünvanını daşımasından istisna etmir. İki il bundan qabaq günah edib, zalımdır. İndi tövbə edib bağışlanıb. Daha ona cəza, əzab verilməz. Amma iki il bundan əvvəli araşdırsaq, bu da o zamanın zalimlərinin siyahısındadır. Bu da o zamanın zalımıdır.

Allah Taala buyurur:

"Mənim əhdim (imamlıq məqamı) heç vaxt zalımlara çatmaz!" (Bəqərə, 124)

Yəni bütün zalımlara imamlıq verilməz. Yəni heç bir zülm edənlərə imamlıq yetişməz. Bu zülmkarlıq xüsusiyyəti ona nə vaxt aid olursa olsun. Axı kəlmənin əvvəlinə "əlif lam" gəlib, olub "əzzalimin". Bu dəlil, qramatika əsaslıdır.

Bir ayrı dəlili də Əllamə Təbatəbai öz kitabında ustadlarından belə nəql edir. Yazır ki, insanlar dörd formada təsəvvür edilə bilər: Birinci təsəvvür budur ki, insan ömrünün əvvəlindən axrına qədər pak olsun. Əvvəldən axıra kimi günaha bulaşmasın. İkinci təsəvvür budur ki, insan ömrünün əvvəlində pak olsun, amma sonda günaha düşüb, zülm etsin. Üçüncü təsəvvür budur ki, ömrünün əvvəlində zülm etsin, günahkar olsun, sonra isə tövbə etsin və pak olsun. Dördüncü təsəvvür bundan ibarətdir ki, əvvəldən axıra kimi zalım, xəbis adam olsun. Həzrət İbrahim (ə) heç vaxt Allahdan öz övladları üçün dördüncü təsəvvür ilə imamlıq istəməzdi. İbrahimin (ə) məqamı çox yüksəkdir. O, Allah-Taaladan ömrünün əvvəlindən axrına qədər günahkar olan adam üçün imamlıq istəməz. Hz.İbrahimin dərəcəsi Allahın yanında nübuvvət və imamət məqamıdır. Allahdan günahkar şəxs üçün imamalıq istəmək onun şəninə uyğun deyil. Hz.İbrahim öz əmisindən uzaqlaşır və deyir ki, mən səndən uzağam, çünki sən bütpərəstsən. İbrahim heç vaxt ömrünün əvvəlindən axrına qədər əyri olmuş insana Allah tərəfindən imamlıq məqamının verilməsini istəməz. Həmçinin, Hz.İbrahim(ə) ikinci təsəvvürə malik şəxsə də, yəni ömrünün əvvəlində saleh, sonunda isə günahkar şəxsə də imamlıq dərəcəsinin verilməsini istəməz. Məsələn, namaz qılan, oruc tutan, əxlaq sahibi olan imanlı şəxsin gəlib sizdən günahkarlara günahında yardım etməyinizi istəməsi nə qədər məntiqizdirsə, bu ondan daha da məntiqsiz görünür.

Hz.İbrahimin (ə) istəyini anlamaq üçün iki təsəvvür qalır. Birinci təsəvvür: insan ömrünün əvvəlindən axrına qədər pak olsun. Əvvəldən axıra kimi günaha bulaşmasın. Üçüncü təsəvvür: ömrünün əvvəlində zülm etsin, günahkar olsun, sonra isə tövbə etsin və pak olsun. Hz.İbrahimin şəninə, səviyyəsinə, düşüncəsinə, paklığına uyğun olan bu iki təsəvvürü istəməkdir. Yəni demək istəyir ki, Allah, mənim nəslimdə bu iki şəraitdə olana imamlıq ver. Allah-Taalada buyurur ki, zalımlara imamlıq məqamı bəxş olunmaz.

Aydındır ki, Allah-taalanın məqsədi əvvəllər günah etmiş sonra isə tövbə etmiş şəxslərə imamlıq məqamının əta edilməməsidir. Burada ikinci və dördüncü təsəvvürlər ümumiyyətlə nəzərdə alınmır. Çünki Hz.İbrahim (ə) heç bir zaman həmin iki təsəvvürü nəzərdə alıb, məntiqsiz istək ortaya qoymaz. Deməli, ayədə Onun məqsədi ömrünün əvvəlində zülm edib, günahkar olub, sonra isə tövbə edən və pak olan şəxslərə imamlıq məqamının verilməyəcəyidir.

Burada başqa bir məsləyə də diqqət etmək lazımdır. Bəzi xüsusiyyətlər insana etdiyi əmələ görə nisbət verilir. O, bu əməli çoxdan etsə belə. Məsələn uzun illər öncə biri kiminsə atasını günahsız öldürübsə, həmin şəxsin oğlu ona "atamın qatılı" deyə bilər. Yaxud onun cəzalandırılmasını tələb edə bilər. Kimsə oğurluq edibsə, ona oğurluğu üçün hökm kəsilə bilər. Hətta onun bu əməlindən uzun illər ötsə də. Bu zaman, qatil yaxud oğru deyə bilməz ki, mən bu əməli çoxdan etmişəm, indi

etmirəm və məni cəzalandıra bilməzsiniz.

Allah Taala buyurur: “Mənim əhd-peymanım zalımlara çatmaz”. Mənası budur ki, ömründə bir dəfə də olsa zülm edən şəxsi imam etmərik. Çünki günaha bulaşan zalım adını vaxtında üzərinə aldığı üçün, o heç bir zaman imam ola bilməz. Məqsəd bu deyildir ki, halhazırda zalım və günahkar olsa, ona imamlıq verilməz. Xeyr, halhazırda pak bir insan olsa belə, keçmişdə bir dəfə də olsa günah edibsə, ona imamlıq məqamı əta edilməz, Allah onunla əhdpeyman bağlamaz.

Qatilin mənası budur ki, o qətl baş verib. Qətl baş versə, onu törədən qatil adlanar. Zaman keçməyi ilə onun qatil olması və qətl törətməsi yenə də həqiqət olaraq qalacaqdır. Cəzasını çəksə belə, yenə də o qatildir və bu ad onun üzərindədir. Cəzası silinə bilər, o artıq yaxşı insan ola bilər, amma qatil olmağı bir həqiqət olaraq qalır, silinmir. Zalım də o cürdür. Zalım ona deyirlər ki, zülm edib. Nəinki zülmü hal-hazırda edir. Zülm etmiş insana zalım deyirlər. Allah-Taala buyurur: “imamlıq məqamı zalımlara” verilməz. Dünən bütpərəst olmuş, bu gün tövbə etmiş insan üçün (bağışlanması üçün) Allahın dərgahı açıqdır, lakin o yenə də imam ola bilməz. Bu ağlın hökmüdür. Mən istədim ki, Qurani-Kərimin ayələrindən bu nəticəni ortaya qoyum. Əqli yoldan belə nəticə alıblar ki, dünənə qədər əyri yolda olmuş insanın müsəlmanların imamı olması uyğun deyil. Bu ümumiyyətlə imamət mövzusu ilə uyğun deyil. İmamət, yəni “qabaqda gedən”. Axırda qalanın gəlib əvvələ keçməyi təqdirəlayiq deyil.

Buna aid hədislər də var. İbni Məsuddan ayə haqqında soruşublar, ayənin təfsirində deyir: Hz.Peyğəmbər (Allah-Taalanın belə buyurduğunu qeyd edib) buyurub: Bir şəxs mənim əvəzimə bütə ibadət etsə mən onu imam etmərəm. Yəni bu məntiqə əsasən, hal-hazırda bütə səcdə etməsə də, ümumiyyətlə nə vaxtsa bütə səcdə etdiyi üçün ona imamlıq verilməz. Sonra Hz.Peyğəmbər (s) buyurur: Ya Əli (ə) bu ayə həm də mənim haqqımdadır çünki, heç vaxt bütə səcdə etməmişəm.

Hişam deyir: Bu ayə haqqında imamdan mən soruşdum və mənim cavabımda belə dedi ki, Hz.İbrahim(ə) nəbi idi, imam deyildi o vaxta qədər ki, Allah bu ayə ilə onu imam etdi. Sonra Allaha müraciət etdi, mənim nəslimdəndəmi imamlıq məqamına çatan olacaqdır? Allah-Taala buyurdu: “Mənim əhdim zalımlara nəsib olmaz”.

İmam bu ayəni təfsir edir. Məlumdur ki, bütə, heykələ pərəstiş etmiş insan imam ola bilməz. İmamlar da bu ayəni izah etdikləri zaman elə həmin mətləbi önə sürmüşlər.

Evdə nələrin olduğunu ev əhli yaxşı bilir. Vəhy Əhli-Beyt (ə) imamlarının evinə, babaları Hz.Peyğəmbərə (s) nazil olub. Onlar yaxşı bilirlər ki, ayədə nə nəzərdə tutulub.

***Höccətül-islam Hacı Məhəmmədbaqir Saivər***



## AŞURADA İMAM HÜSEYNİN (Ə) KARVANINA QOŞULAN XRİSTİAN AİLƏ



*Vəhəb ibni Abdullah Aşurada Kərbəla şəhidlərindən biridir. O və onun ailəsi İmam Kərbəlaya yollanarkən o həzrətin karvanına qoşulmuşdu. Yeni evlənən (bəzi rəvayətlərə görə cəmi 17 gün idi ki evlənmişdi) gəncin şəhid olan zaman 25 yaşı var idi. Həyat yoldaşı və anası da onunla birgə idilər.*

*Aşura günündə təkbətək döyüşləri zamanı şəhid oldu. Başının üstünə gələn anasını da rəhmsizliklə şəhid etdilər. Rəvayətə görə, anasının ondan daha tez iman gətirməsi onun İslamı qəbul etməsinə zəmin yaratmışdı. Əsasən anası idi ki, onun İmam Hüseynə qoşulmağa və döyüşə atılmağa təşviq edirdi.*

*Aşura günündə Vəhəbin başını kəsib, anasının qarşısına atanda o dedi:*

*“Həmd o Allaha olsun ki, onun şəhid olması ilə Rəbbim və İmam yanında başım uca, gözüm isə aydın oldu. Allaha şəhadət verirəm ki, kilsələrdəki və atəşgahlardakı xristianlar, yəhudi və atəşpərəstlər sizdən yaxşıdır”.*

*Xarəzmi deyir ki, Şimr ibni Zil-Couşən öz nökərinə onu öldürməyi əmr etdi və o da Vəhəbin anasının başından vurub onu qətlə yetirdi.*

*Şeyx Abbas Qummi Vəqaiyul-Əyyam əsərində yazır ki, bu ailə İmama qoşulanda xristan idilər və daha sonra müsəlman oldular.*



# AŞURA MƏKTƏBİNİN *digər məktəblərdən fərqi*

***İmam Hüseyn (ə) başda olmaqla Kərbəla şəhidlərinin adı və xatirəsinə həsr olunmuş əzadarlıq məclisləri böyük bir məktəbdir; zülm və haqsızlıq müqabilində müqavimət məktəbi, ixlas və fədakarlıq məktəbi. Bu məktəbin digər məktəb və universitetlərlə fərqi olduqca böyükdür:***

1) Universitetlərin dünyanın hər bir nöqtəsində şöbə və filialları olmur. İmam Hüseynin (ə) rəhbərlik etdiyi Aşura məktəbinin isə hər yerdə şöbə və filialı vardır, hətta Afrika kimi dünyanın ən uzaq və ucqar nöqtələrində belə bu məktəbin filialları fəaliyyət göstərməkdədir.

2) Aşura məktəbinin şagird və tələbəsi olmaq üçün imtahan vermək, müsabiqədə iştirak etmək lazım deyil. Kimliyindən və keçmişindən asılı olmayaraq, hər kim istəsə, imtahansız bu universitetin tələbəsi ola bilər.

3) Hər bir universitet məhdud sayda tələbə qəbul edirsə, imam Hüseyn (ə) məktəbinin üzvləri və tələbələri məhdud deyil və o həzrətin məktəbinə üzv olmaq və məclisində iştirak etmək azaddır. Hər il imam Hüseyn (ə) ziyarətinə üz tutan 20-30 milyonluq Ərbəin yürüşü iddiamıza sübutdur. Hətta imam Hüseyn (ə) əzadarları içərisində digər din və məzhəblərin mənsubları da görünməkdədir.

4) Aşura məktəbinin Əliəsğər adlı altı aylıq müəllimi var və bu məktəbin müəllimi və yaxud tələbəsi olmaq üçün də yaş məhdudiyyəti yoxdur.

5) Aşura məktəbində məzuniyyət yoxdur. Ümumiyyətlə, İslamda məzuniyyətdən söz gedə bilməz. Allah-Taala Öz Peyğəmbərinə xitabən buyurur:

"De: Ey Rəbbim, mənim elmimi artır!"

("Taha" surəsi, ayə 4.)

Yəni ey Peyğəmbər, peyğəmbər olsan da, məzun deyilsən.

Hətta Allah-Taala Musa peyğəmbərə əmr verir ki, get həzrət Xızırın şagirdi ol. Yəni Musa (ə) "ulul-əzm" peyğəmbər olsa da öyrənməlidir.

6) Heç bir universitetdə fədakarlıq, sədaqət və vəfadarlıq fakultəsi yoxdur. Aşura məktəbi isə, ədəb, ehtiram, fədakarlıq və vəfadarlıq simvoludur. Yusif peyğəmbərin (s) on qardaşı var idi, amma vəfasız idilər. İmam Hüseynin (ə) isə bir qardaşı var idi, vəfadarlığın zirvəsi idi.O da həzrət Əbülfəzl-Abbas (ə) idi.

7) Aşura məktəbində məğrurluq, təkəbbürlülük və özündənrazılıq yoxdur. Digər məktəb və universitetlərdə isə diplom alanlar məğrur olur, özünü ziyalı, savadlı zümrəsindən hesab edir. Kərbəlada görürük ki, imam Hüseyn (ə) namaz qılarkən səhabələr o həzrətin keşiyində dayanır və hətta bədənləri oxlara tuş gəlib çoxlu yara alaraq şəhadətə yetirlər. Onlar şəhadətə yetməzdən öncə İmamdan (ə) soruşurlar: "Məndən razısanmı?"

Baxın, canını qurban verir və ömrünün sonunda soruşur ki, məndən razısanmı? Bəli, İmam Hüseyn (ə) məktəbinin tələbələri canlarını fəda edirlər, amma məğrur olmurlar.

8) Bu məktəbin üzvləri əzadarlıq məclislərinə eşqlə gəlirlər, hətta belə məclislərdə iştirak etmək üçün öz ciblərindən pul xərcləyirlər. Digər məktəb və elm ocaqlarında isə, müəllimə pul və maaş verilməzsə, sinifə girməz, tədris etməzlər.



# QEYRİ-ƏRƏB MƏNŞƏLİ KƏRBƏLA ŞƏHİDLƏRİ

***Aşura günündə Kərbəlada İmam Hüseyni (ə) müdafiə edərək şəhid olmuş səhabələrin sırasında ərəblərlə yanaşı, başqa millətlərə mənsub olan şəxslər də var idi. Deməк olar ki, bütün böyük ərəb qəbilələrinin təmsil olunduğu bu azsaylı dəstənin tərkibində türk, həbəş və fars mənşəli şəxsiyyətlərin də olması tarix kitablarında qeyd edilib. Aşağıda onların barəsində qısa məlumat veririk:***

## Türk qulam

Aşura müsibətini təsvir etmiş müəlliflərin demək olar ki, hamısı Kərbəla şəhidləri cərgəsində Əhli-beytə mənsub türk soylu qulamın olduğunu xəbər vermişdir. Onun adına və şəxsiyyətinə gəlincə, mənbələrdəki məlumatlar fərqlənir. Mövcud mənbələrdə bu şəhid «türk qulam», «Əsləm» və «Vazeh» adları altında xatırlanır.

Mərhum Şeyx Şəmsüddin «Ənsarül-Hüseyn» kitabında qeyd edir ki, Təbəri türk qulamın adını «Süleyman» yazmışdır. Şeyxüt-taifə Tusi isə «Rical» kitabında yazır ki, İmam Hüseynin (ə) Səlim (və ya Süleym) adlı qulamı onunla birlikdə şəhid olmuşdur. Şeyx Şəmsüddin qısa tədqiqatdan sonra bu fikri irəli sürür: «Güman edirik ki, Kərbəlada öldürülmüş qulamın adı nə Səlim, nə də Süleyman deyil, Əsləm imiş» (səh. 83).

«Dairətül-məarifi-təşəyyö» («Şiə ensiklopediyası») kitabında (II, 161) Əsləmin atasının adı Əmr kimi göstərilir. Həmçinin, bu kitabda yazılıb: «Bəzi mənbələrdən, o cümlədən, «Vəsilətüd-dareyn» kitabından məlum olur ki, Əsləmin atası Qəzvin nahiyəsindən, Deyləmandan imiş». Adı çəkilən «Vəsilətüd-dareyn» əsərində (səh. 100) yazılıb: «Əsləmin atası Əmr türk idi (zahirən atası Qəzvin yaxınlığındakı Deyləm türklərindən imiş)». Seyyid Mustafa Hüseyni Dəştinin «Məarif və məariyf» əsərində isə türk qulam «Vazeh» adı ilə xatırlanır.

Məşhur şiə alimi Əllamə Möhsin Əmin «Əyanüş-şiə» kitabında, Kərbəla şəhidlərinin siyahısında Əsləmlə Vazehi ayrı-ayrı şəxslər kimi təqdim etmişdir. Belə ki, bu siyahıya görə, Əsləmi-türki – İmam Hüseynin (ə), Vazehi-rumi isə Kərbəla şəhidi Haris Səlmaninin qulamı imiş («Əyanüş-şiə», I, 610-612).

Bəzi mənbələrdə türk qulam Hürrün qulamı kimi göstərilib (Ibn Şəhraşub. Mənaqibü Ali-Əbi Talib, IV, 113). Lakin səhih tarixi rəvayətlərə görə, İmam Hüseyn (ə) öz qardaşı İmam Həsənin (ə) şəhadətindən sonra türk qulamı kölə kimi satın alıb, oğlu İmam Zeynülabidinə (ə) bağışlamışdı. Bütün aşura tarixçilərinin yekdil rəyinə əsasən, türk qulam Quran qaresi, bacarıqlı katib, mahir oxatan və şücaətli pəhləvan idi. O, İmam Hüseynin (ə) yazı və məktublarını qələmə alırdı. Bəzi rəvayətlərdə deyilir ki, Əsləmi-türki Quranı əzbər bilir və hər gecə Quran oxuyurdu. O, aşura günündə döyüş meydanında misilsiz hünər göstərib, 70 nəfər düşməni cəhənnəmə vasil etdi. İmam Hüseyn (ə) 7 nəfər şəhidin başı üzərinə gəlmiş və onlarla vidalaşmışdı. Bunlardan biri də türk qulam idi.

Şeyx Abbas Qummi «Nəfəsül-məhmum və nəfsətül-məsdur» kitabında (səh. 135) türk qulamın şücaətindən söhbət açandan sonra yazır: «İmam Hüseyn (ə) öz türk qulamına məhəbbətini bildirib, üzünü onun üzünə dayadı; halbuki, başqa silahdaşlarından heç biri ilə belə rəftar etmədi. Bir tərəfdən, İmam bu hərəkətlə qərib qulamı əzizləyirdi. Digər tərəfdən, qulamın mənəvi kamilliyə çatması və hafizi-Quran olması onu bu məqama layiq etmişdi».

Mənbələrdə Əsləmin döyüş meydanında oxuduğu iki beytlik rəcəz nəql olunur. Həmin rəcəzin tərcüməsi belədir: «Vurduğum zərbələrdən dənizlər qaynaşar, atdığım oxlardan səma tutular. Qılıncım əlimdə görünəndə, həsədli və təkəbbürlü düşmənin qəlbi yarılar».

Lakin maraqlı budur ki, hicri XIII əsrin şairlərindən olan Mirzə Ibrahim Cövhərinin «Tufanül-büka fi məqatilişşühəda» əsərində (fars dilində nəzmlə yazılmış bu kitab vaxtilə çox məşhur olmuş, təziyə məclislərində oxunmuşdur) Əsləmin ərəb dilindəki bu rəcəzi verildikdən sonra belə yazılıb:

«Sonra o, bir anlıq Ibn Sədə türk dilində müraciət edib, zəbani-halını söylədi:

Sədi-Vəqqas oğlu, üz qarə, nə bidad eylədin?!
Nuri-çeşmi-Heydəri-Kərrarı naşad eylədin!
Get, görüm nəslin qazılsın, heç nişanı qalmasın,
Bu ki, Nəmrud etməmiş, sən nəsli-Şəddad eylədin!
Siz ərəb, Əhməd ərəb, mən türk, ey birəhmlər,
Mərkəzi-imanı yıxdın, küfrü bünyad eylədin!
Zülm ilə solmuş bu gülşəndə baharı Zeynəbin,
Tişeyi-zülm ilə qəti-qəddi-şümşad eylədin!».

**Zənci Cövn**

İmam Hüseynin (ə) qulamı Cövn əslən Nubiyadan idi, nəsəbi isə belədir: Cövn ibn Hüveyy ibn Qətadə ibn Əvər ibn Saidə ibn Övn ibn Kəb ibn Hüveyy. O, vaxtilə Peyğəmbərin sadiq səhabəsi Əbuzərə xidmət etmişdi. Əbuzərin Rəbəzəyə sürgün olunmasından və orada vəfat etməsindən sonra Cövn Əhli-beytə xidmət etməyə başladı. O, əvvəlcə Həzrət Əlinin (ə), daha sonra Imam Hüseynin (ə) xidmətində durdu. İmam Hüseyn (ə) onu öz oğlu Imam Zeynül-abidinə (ə) qulluq etməyə təhkim etdi.

Cövn qara dərili zənci idi, silah hazırlamaq və itiləmək işində mahir idi. O, Mədinədən Kərbəlaya kimi Əhli-beyti müşayiət etdi. Aşura gecəsində İmam Hüseynin (ə) icazəsi ilə Cövn səhabələrin silahını itiləyib, döyüş üçün hazır vəziyyətə gətirmişdi.

Aşura günü İmam Hüseynin (ə) ətrafındakı döyüşçülərin sayı azalanda Cövn o həzrətin hüzuruna gəlib, döyüş icazəsi istədi. İmam Cövnə buyurdu ki, onu xidmətdən azad edir və beyətini üstündən götürür, Cövn hara istəsə, gedə bilər. Lakin bu sədaqətli qulam cavab verdi ki, mən Sizin şadlıq və salamatlıq vaxtlarınızda yanınızda olub xidmət etmişəm; bu çətin gündə də Sizi buraxıb getmək istəmirəm. Rəngim qara, qoxum pis olsa da, Sizdən ayrılmayacağam. Şəhid olacağam ki, qara qanım Sizin şərəfli qanınıza qarışsın!

İmam Cövnün dönməz iradəsinə əhsən deyib, ona döyüş icazəsi verdi. Cövn savaş səhnəsinə qədəm basıb şücaətlər göstərdi. Nəhayət, 25 nəfər düşməni qətl edəndən sonra şəhid oldu.

İmam Hüseyn (ə) Cövnün cəsədi üstə gəlib, onun başını dizi üstünə qoydu və buyurdu: «İlahi, Cövnün üzünü ağ, ətrini xoş et. Onu yaxşı insanlar cərgəsində məhşərə gətir. Onunla Muhəmməd (s) və Ali-Muhəmməd (ə) arasında dostluq yarat!».

Hədislərdə deyilir, aşura faciəsindən sonra şəhidlərin cənazələrini dəfn edərkən gördülər ki, Cövnün bədənindən müşk ətri gəlir.

**Nəsr ibn Əbu Neyzər**

Aşura gününün əvvəlində düşmən qoşunu Imam Hüseynin (ə) kiçik dəstəsinin üzərinə kütləvi hücuma keçdi. Bu hücumu dəf edərkən səhabələrdən təqribən 50 nəfəri şəhid oldu. Bunlardan biri də Nəsr ibn Əbu Neyzər idi. Onun atası Həzrət Əlinin (ə) azad olunmuş qulamı idi. Tarixçilərin bir qismi Əbu Neyzəri hətta nəcaşinin (Həbəşistan padşahının) övladlarından saymışlar; guya Həzrət Muhəmməd Peyğəmbərin (s) təklifi ilə İslamı qəbul etmişdi. Bəziləri isə onun Iran şahzadəsi olduğunu yazıblar.

Həzrət Əlinin (ə) və Imam Həsənin (ə) vəfatından sonra Nəsr İmam Hüseynə (ə) qoşulmuş, Mədinədən Kərbəlaya kimi Onu müşayiət etmişdi.





# 7 QRUP KƏRBƏLA ŞƏHİDLƏRİ

***Aşura tədqiqatçısı və yazıçı Məhəmməd Rza Səngəri "İQNA" ilə eksklüziv müsahibəsində Kərbəla şəhidlərini neçə yerə bölüb ki, onu diqqətinizə çatdırırıq:***

Həzrət Hüseynin (ə) qiyamında yeddi qrupdan bəhs etmək olar. Birinci qrup Əba Abdillah (ə) Kərbəlaya çatmazdan əvvəl şəhid olmuş şəhidlərdir. Bəlkə də hamısının rəhbəri Bəsrədə şəhid olmuş Süleyman ibn Rəzzin adlı bir şəxsiyyətdir. O, İmamın elçisi idi. Onun Həzrət Əba Əbdillahın (ə) adamı olduğu məlum olduqdan sonra Ubeydullah ibn Ziyad onu həbs edib şəhid etdi. Sonra da Kufəyə doğru hərəkət etdi. Müslim ibn Əqil, Qeys ibn Məshər və Abdullah ibn Yəqtur kimi şəxslər də İmam Hüseynin (ə) hərəkatı və Kərbəlaya gəlişindən əvvəl şəhid olmuş bu kateqoriyadan olan insanlardır. Bu xalqın Kufədəki öncülü Meysəm Təmmardır.

Həzrət Əba Abdullahın (ə) ikinci dəstəsi Aşuranın səhəri düşmən tərəfindən atılan ox yağışında şəhid olanlardır. Aşura səhəri ox atma ilə başladı və ilk oxu atan Ömər Səd oldu. Bunun nəticəsində, İmam Hüseynin (ə) səhabələrindən əlli iki nəfər şəhid oldu.

Kərbəlada şəhid olanlardan bəziləri Allah Rəsulunun (s) səhabələrindən idilər və Peyğəmbərin döyüşlərini dərk etmişdilər. Həmçinin İmam Hüseyni (ə) uşaqlıqda Peyğəmbərlə (s) birlikdə görmüş və Peyğəmbərin (s) İmam Hüseyn (ə) haqqında rəvayətlərini eşitmişlər. Həbib ibn Məzahir və Müslim ibn Övsəcə də bu insanlar arasında idi.

Üçüncü kateqoriya isə tək-tək döyüş meydanına çıxan və bəzən də bir neçə nəfərlə birlikdə meydana girən şəhidlərdir. Məsələn, Bəsrədən gəlib Həzrət Əba Əbdillahın (ə) xidmətinə gələnlər kütləvi şəkildə döyüş meydanına daxil olurdular. Bəzən mühasirəyə düşürdülər və Həzrət Əbülfəzlil-Abbas (ə) gedib mühasirəni yarıb onları geri gətirirdi. Yaralanıb yenidən meydana qayıtdıqlarında, şəhid olurdular. Onların bəziləri Abdullah ibn Umeyr Kəlbi kimi tək başına meydana gedib şəhid oldular.

Təkbətək döyüşün son şəhidi Həzrət Əba Abdillahil-Hüseynin (ə) ordusunun sol cinahının komandanı olan Həbib ibn Məzahir Əsədidir.

Növbəti şəhidlər qrupu, dördüncü qrup Kərbəla şəhidləri Həzrət Əba Abdillahın (ə) günorta namazı şəhidləridir. İmam Hüseyn (ə) Əbulfəzlil- Abbası (ə) göndərdi ki, uca səslə düşməndən onlara namaz qılmaları üçün aman verməlerini istəsin. Həzrət namaza qalxıb meydanda iki rükət namaz qıldı və bu namaz üçün iki şəhid verdi. Ona görə də növbəti kateqoriya namaz şəhidləridir.

Növbəti kateqoriya namazdan sonra şəhid olanlardır. Bu insanların sayı təxminən on bir nəfər idi. Bu insanlar bir-bir meydana çıxıb şəhid oldular. Aşura günü günorta namazından sonra ən görkəmli şəhidlərdən biri Züheyr ibn Qeyndir. O, böyük şəxsiyyət idi. Həzrət Əba Abdillahın (ə) ordusunun sağ cinahına komandanlıq edirdi və yolda o həzrətə qoşulmuşdu.

Bu bir neçə nəfər şəhid olduqdan sonra növbə Bəni-Haşimə, yəni Həzrət Əba Abdillahil-Hüseynin (ə) ailəsinə, məsələn Əqilin övladlarına, İmam Həsən Müctəbanın (ə) övladları, Əmirəl-möminin (ə) övladları yəni İmam Hüseynin (ə) qardaşları, o cümlədən Əbülfəzlil-Abbas, Cəfər, Osman və Abdullah çatır. Bunlardan sonra İmam Hüseyn (ə) şəhid oldu. İmam Hüseyndən (ə) sonra bizim bir neçə şəhidimiz var.

Kərbəlada olan və şəhid olan sonuncu şəxs Bəsrəni tərk edib Kərbəlaya gec çatan şəxsdir. O, gələndə düşmən ordusu şənlənirdi. O, Həzrət Əba Abdillahın (ə) şəhid olduğunu anladı və qılıncını çəkib döyüşə girdi və şəhid edildi. O Mohnəd Rasibi Bəsridir. Onu Kərbəla meydanının son şəhidi saymalıyıq.

# ARZULARA ÇATMAĞIN 4 YOLU




**Qurani-Kərim bizlərə arzularımıza çatmaq üçün 4 yol tövsiyə edir.**

## 1. Ümid

Allah bəndələrinə istəklərinə çatmaq üçün ümid yolunu tövsiyə edir. Allah Təala buyurur ki, gərək bəndə hər bir halda ümidvar olsun. Heç bir zaman İlahi rəhmətdən ümidsiz olmasın.

Çünki ümid insanın kamala doğru hərəkət amilidir. O zamana qədər ki, insan ümidsiz olar, təkamülə tərəf hərəkət etməz. Quran buyurur ki, ümid insan ruhiyyəsini elə tərbiyə edir ki, çətinliklər onun üçün asan görünür.

İnsan bir əməl görən zaman stimula malik olmalıdır. Əməl və iş hər nə qədər çətin olarsa, gərək insan ondan daha çox nəticələr və bəhrələr əldə edəcəyinə ümid bəsləyərək, bu işə qalxsın.

“Buna görə də kimin öz Rəbbi ilə görüşə ümidi varsa, gərək yaxşı iş görsün və ibadətdə heç kəsi öz Rəbbinə şərik qoşmasın”. (“Kəhf” 110).

Ümid insanda elə bir rahatlıq hissi meydana gətirər ki, insan hədəfinə çatmaq üçün daha yaxşı yollar tapar.

## 2. Təvəkkül

İkinci həll yolu – təvəkküldür. Din insanda təvəkkül hissini yaradır. Biz müsəlmanlara öyrədir ki, bütün işlərimizdə Allaha təvəkkül etməyi bacaraq. İslam dini bu yolla insana elə bir dayaq qərar verir ki, Quran kitabında Qadir, Əziz, Qahir… adları ilə məşhurdur. O kəsdir ki, hər bir qeyri-mümkünü mümkün edər.

“Əgər imanınız varsa yalnız Allaha təvəkkül edin”. (“Maidə” 23).
“Kim Allaha təvəkkül etsə, O ona kifayət edər”. (“Təlaq” 3).

## 3. Təfəkkür

Sonrakı yol – sağlam təfəkkürdür. Quran buyurur: “O kəslər ki, ayaq üstə, oturduqları halda və böyürləri üstə (yatdıqları halda) Allahı yadlarına salır, göylərin və yerin yaradılışı(nın sirləri) barəsində fikirləşir (və qəlbləri və ya həm qəlb, həm də dilləri ilə deyir)lər:

«Ey Rəbbimiz, bunu (bu əzəmətli aləmi) boş yerə yaratmamısan! Sən (faydasız və puç işlərdən) pak (və uzaq)san (və bütün bunlar mütləq ali məqsəd, yəni ağıl sahibləri üçün vəzifələr müəyyənləşdirmək və dünyada savab və əzaba layiq olmaq və onların axirətdə gerçəkləşməsi üçündür). Odur ki, bizi odun əzabından qoru»”. (“Ali-İmran” 191).

Təfəkkür insanın arzusu ilə olan fasiləsini qısaldar. Ona bu arzusuna çatmaq üçün ən qısa və ən düzgün yolu göstərər.

## 4. Dua

Allah Təala Özü ilə bəndələrinin rabitəsinə çox əhəmiyyət verir. Onları davamalı olaraq dua etməyə dəvət edir. Baxmayaraq ki, hər bir insanın qəlbində olandan agahdır, ancaq bəndələrinə olan əlaqəsi və sevgisi o qədər şiddətlidir ki, istəyir ki, bəndələri Onunla söhbət etsinlər.

İstəklərini Allaha bildirsinlər. “Əgər dualarınız olmasaydı, mənim Pərvərdigarım sizə etina etməzdi”. (“Furqan” 77).

Bunu da qeyd etmək lazımdır ki, əgər insan bir şeyi istəməsə, həmin işi görməyəcəkdir. Bu bizik ki, gərək arzularımız üçün hərəkət edək.

Allah Təala bizləri düzgün arzusu olanlardan və bu arzuya düzgün yollarla nail olanlardan qərar versin.

# NƏHCÜL-BƏLAĞƏNİN İŞIĞINDA İCTİMAİ HƏYAT



***İmam Əlinin (ə) həyatının əsasları Quran və Peyğəmbərin (s) sünnəsinə əsaslanırdı. İctimai fəaliyyət və cəmiyyətlə iş sahəsində həzrətin münasibətləri ilahi göstərişlər və Peyğəmbər (s) sünnəsi əsasında qurulmuşdu. Bu da insanlar üçün mükəmməl bir nümunə sayıla bilər.***



Nəhcül-bəlağə üzrə tədqiqatçı Bəxşəli Qənbəri sosial əxlaqı “Nəhcül-bəlağə”nin nəzərindən tədqiq etmişdir. Onun beşinci hissəsi “Qəflətdən çəkinmək” haqqındadır. Onun mətnini aşağıda oxuya bilərsiniz:

Burada qəflətdən çəkinmək mövzusuna aid olan “Nəhcül-bəlağə”nin 64-cü xütbəsindən danışacağıq. “Nəhcül-bəlağə”nin başqa bir açar sözü “qəflət”dir; Əlbəttə ki, bunun əksi, ayıqlıq, oyaq və ayıq olmaqdır.

Nəhcül-bəlağədə dünya üçün dörd xüsusiyyət bəyan edilmişdir; Ğəyərə, İbərə, Əna və Fəna. “Ğəyərə” yəni bu dünya dəyişməkdədir. “İbərə” yəni dərs almaq halındadır. “Əna” yəni dərd, qəm və qüssəsi var. “Fəna” isə bu dünyada yaşamış və ya yaşayanların hamısının bu dünyadan gedəcəyini bildirir.

Nəhcül-bəlağədə iki növ qəflət qeyd olunur; Biri insan varlığının quruluşunda qərar verilmiş qəflətdir. Mən sizinlə danışıram və mütləq şəkildə arxamda baş verənlərdən qəflətdəyəm. Ona görə də bu qəflət quruluşumda qərar verilib və mən ondan ayrıla bilmərəm. Yalnız irfan yolunu gedən şəxslər bu qəflətə qələbə çala bilərlər.

İkinci qəflət; Bu təsadüfi və ya istəyə bağlıdır. İstəsək çıxa biləcəyimiz bir qəflətdir. Məsələn, İmam Əlinin (ə) bu xütbədə diqqət yetirdiyi və sizin bu qəflətdən əziyyət çəkə biləcəyiniz barədə xəbərdarlıq etdiyi mövzulardan biri də ölümə qarşı qəflət etməkdir.

Diqqət edin, biz ölümdən danışanda ölümü yad edir, ölümü tanıyır və ölüm haqqında düşünürük. İmam Əli (ə) bizi ölüm haqqında düşünməyə sövq edir. Bu çox incə məqama diqqət yetirin, əks halda ölümlə tanış olmaqdan və ölüm barədə düşünməkdən düzgün dərs çıxarmayacayıq. Niyə ölümlə tanış olmalı, ölümü yad etməli və ölüm barəsində düşünməliyik? Bu günümü və anımı itirməmək üçün; Burada və indi yaşamağı əldən verməməli, burada və indi vəzifəmi unutmamalıyam.

İmam Əli (ə) buyurur: “Dünyadan köçün ki, səni ondan köçürmək üçün çalışırlar. Sizə kölgə salan ölümə hazır olun. O şəxslər kimi ol ki, onlara qışqıranda ayılırlar və dünyanın əbədi bir yer olmadığını bilir və onu axirətlə dəyişdirirlər.

Yəni onlar bu dünyada elə yaşadılar ki, dünyanı axirət həyatına bağladılar. Çünki onlar qəflət içində yaşamırdılar. Bu məsələdən bir az qəflət etsək, dünya bizi o qədər özünə cəlb edər ki, öləcəyimizi unudarıq. İnsanlar mən öləcəyəm cümləsini desələr, başqalarına zülm edərlərmi?!

Zülm bu dünyada daimi olduğumuzu düşündüyümüz zaman başlayır. Əli (ə) buyurur; “Ölümü yad etmək zülm etməyinizin qarşısını alar və qəlbinizi yumşaldar”.



# Ailənin dindar olması üçün nə etməli?

***Ailə dini məsələyə qarşı hər nə qədər həssas olarsa, övladın dinə münasibətdə sabitqədəmliyi çox olar. Dini dəyərlər ailə vasitəsilə övlada ötürülər.***

***Əgər ailədə ana ataya qarşı lazımlı ehtiramı göstərməzsə, adətən övladlar da ataya hörmət etməzlər. Lakin əgər ana uşaqların gözü önündə ataya hörmət edirsə, bu uşaq özündən asılı olmayaraq ataya hörmət edər. Əgər ata uşaqların gözü önündə rahat şəkildə ananın ürəyini sındıra bilirsə, uşaqlar da rahat şəkildə anaya əziyyət verə bilərlər. Lakin əgər ata anaya məhəbbət göstərərsə, uşaqlar da ananı incitməyə qıymazlar.***

Əgər tərbiyə sütunlarını xarab etsək, bir insanın dindarlığı da düzgün olmaz. Əgər bir insan ailəsindən fərqli olaraq yaxşı insan olmaq istəsə, mümkündür ki, çox da yaxşı ola bilməyəcəkdir.

Ata özünə həyat yoldaşı seçən gündən övladının dini tərbiyəsinə başlamış olar. Çünki ata və ana - uşaq tərbiyəsinin ilk amilləridir. Valideyn həyat yoldaşı seçən gündən övladının dini şəxsiyyətini müəyyən edər. Əgər halal və haram olanlara riayət edirsə, saleh övladlar yetişdirə bilər.

Tərbiyəyə təsir edən amillərdən biri də irsi bağlardır. İslam dini də o qadınlarla evlənməyi məsləhət görür ki, fəzilətli nəslə aid olsun. Həzrət Peyğəmbər (s) buyurur: “Xəzraul-dəməndən çəkinin”. Soruşurlar ki, bu kimlərdir? Buyurur: “Pis və çirkin nəsildə böyüyən gözəl qadındır”.



Həyat yoldaşını seçən zaman bu qədər məsələlərə diqqət etmək ona görə tövsiyə olunur ki, gələcək nəsil pak və saleh olsun. Yəni, valideyn atdığı ilk addımda övladının dini şəxsiyyətini müəyyən edər. Ailə saleh və dindar olarsa, övlad da olar.

Valideyn hələ kiçik yaşlardan övladının dini tərbiyəsinə diqqət etməli və İlahi vacibatları yerinə yetirməsi üçün onu hidayət etməlidir. Bu cür uşaq heç bir siyasi və mədəni hücuma məruz qalmaz və hətta cəmiyyətdə aparıcı rolları belə ifa edə bilər. Başqalarını da hücumlardan qoruyar.

“Ey iman gətirənlər, səbrli olun və başqalarını da səbrə sövq edin, düşmən qarşısında müqavimət göstərin, sərhədin keşiyində durun və Allahdan qorxun, bəlkə nicat tapdınız”. (“Ali-İmran” 200).

Bizim dinimiz də ailədə başlamışdır. Belə ki, biz bir ailəni tanıyırıq ki, dünyanı öz təsiri altına salmışdır. Nə zaman onlara salam vermək istəsək, deyirik ki: “Əssəlamu ələykum, ya Əhləl-beyti (ə) nübuvvət”. Bu ailə dinin proqramına ailəvi əməl edirdi. Yəni bu ailə gəldi və ailəlikcə din yolunda fədakarlıq etdi. Ata, ana, kürəkən, oğul, qız - hamısı din yolunda özlərini fəda etdilər. Ona görə də dinimiz ailədən başlayıb, ailəliklə hifz olunmuşdur. Bu ailə İmam Əlinin (ə) ailəsi idi.

# ALLAHIN KİTABINDA ƏN YAXŞI ÜMMƏT, ƏN YAXŞI CAMAAT HANSIDIR?



***İnsanlar toplum olaraq millət, vətəndaş, ümmət və sair bu kimi qisimlərə bölünür. Bunların içində ümmət məfhumu (anlayışı) əhatə baxımından daha genişdir. Ümmət anlayışı bir dini istilah olaraq, eyni əqidədə, eyni dini etiqada mənsub olan topluma deyilir. Məsələn İslam ümməti. Bura təriqət və məzhəbindən aslı olmayaraq bütün müsəlmanlar daxildir.***

***Hazırda yer üzündə səmavi və qeyri səmavi olaraq çoxlu dinlər vardır. Səmavi dinlər Allah Təala tərəfindən göndərilmişlər, qeyri səmavi dinlər isə, idoloji-fəlsəfi məktəb olaraq insanlar tərəfindən tərtib edilmişdir.***

***Allah Təala tərəfindən zaman-zaman yer üzü əhli üçün müxtəlif səhifələr və kitablar nazil olub. Sonuncu din olaraq İslam dini ilə bu nazilolmanı xətm etmiş və bəşər üçün, ona kifayət edəcək bir din olaraq, İslamı bəyənib seçmişdir:***

***“Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim” (Maidə-3).***

***Digər bir ayədə isə Allah Təala bu dinə üz tutanları, dini yaşayanları, Allaha inanları, dini qoruyanları və insanları Allahın yoluna dəvət edənləri belə vəsf edir:***

***Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz (onlara) yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız (Ali-İmran- 110).***

***Rəbbimiz bu ayə ilə bir neçə mətləbi bəyan etmiş, yaxşılığın və üstünlüyün meyarını bəyan etmişdir. Mətləblərə diqqət edək:***

***1-İnsan: Hamımızın insan olması, yaradılışımızın bir olması, arzu və hisslərimizin bir olması***

***2-Ortaya çıxarılmamız: Yəni yaradılmamız. Hamımız yaradılmışıq, demək yaradanımız var, Yaradan yaratmış və hədəflə yaratmışdır. Çünki heçbir şey hədəfsiz yaradılmır***

***3-Ümmət olmağımız: Eyni dini düşüncəyə, Vahid Allaha pərəstiş etməmiz***

***4-Yaxşı: Demək yaxşı varsa onun müqabili pis də var. Bu anlamlar varsa bunların meyarı da vardır.***

***5-Yaxşılığa dəvət və pislikdən çəkindirmə: Bu Allah Təalanın bəyəndiyi və bizə dəyər qazandıran işlərdəndir. Bu çox önəmli bir məsələdir ki, bizə dəyər qazandırır. Çünki bu əməllə həm özümüz, həm də çəkindirdiklərimiz islah olur. İnsan islah olduqca dəyər qazanır. Yəni insanın Allah yanında dəyəri onun islah olaraq Allaha “yaxınlaşması” qədərdir.***

***6- Nəticədə bütün bunlar bir nöqtədə düyünlənir: Allaha imanda.***

***Allah Təalanın kitabında ən yaxşı camaat, ən yaxşı millət, ən yaxşı ümmət Allaha iman gətirib yaxşı iş görən, pisliklərdən çəkinib, başqalarını da bu pisliklərdən çəkindirən ümmətdir.***



# İmam Hüseyn (ə) «İnsan» surəsində

**«İnsan» surəsi Qurani-Kərimin 76-cı surəsi olub və 31 ayədən ibarətdir. Bu surənin 5-ci ayəsindən 22-ci ayəsinə qədər Əhli-beytə (ə) aid olunur:**

«Doğurdan da əsl yaxşı insanlar kafurun xoş ətrinə qarışmış camdan su içərlər. Elə bir çeşmədən (su içərlər) ki, oradan yalnız İlahi bəndələri (övliyalar) su içir və onu istədikləri tərəfə yönəldirlər. Onlar nəzir etdikdə yerinə yetirir və müsibəti uzun olan gündən (qiyamət günündən) qorxurlar. Yeməyi sevdikləri halda onu yoxsula, yetimə və əsirə ehsan edirlər. (və deyirlər:) Biz yalnız Allaha xatir sizə ehsan edirik və bunun qarşılığında sizdən heç bir əvəz və təşəkkür istəmirik. Biz qaranlıq və vəhşətli gündən (qiyamətdən) Rəbbimizə (necə cavab verəcəyik) deyə qorxuruq. (onlar belə olduqları üçün Tanrı da, onları o günün şərrindən amanda saxlayar və onlara sevinc və şadlıq nəsib edər. Həmçinin səbr etdikləri üçün behişt və (orada) ipək paltarlar ilə mükafatlanarlar. Taxtlara söykənib (rahatlanarlar), orada nə günəş (qızmar isti), nə də sərt soyuq görəcəklər. Ağaclarının kölgəsi üstlərinə düşəcək, meyvələri də onların qarşılarında olacaqdır.

Gümüş və büllur qablar onların ətrafında dolanarlar. Gümüşdən olan elə büllur (qədəhlərlə) ki, (xidmətçilər) onları (sahiblərinə) münasib ölçüdə müəyyən etmişlər. Onlar behiştdə zəncəfil ilə qarışmış su kasasından içərlər. Bu su çeşməsini orada «Səlsəbil » adlandırırlar. Orada onların dövrəsində behişt cavanları dolanar ki, əgər onları görsəniz (yerə) səpilmiş mirvarilərə bənzədərsiniz. Əgər oranı (behişti) görsəniz çoxlu nemətləri və əzəmətli hakimiyyəti müşahidə edərsiniz! Onların üzərlərində taftadan və atlazdan (nazik və qalın ipəkdən) yaşıl libaslar vardır. Və gümüş, bilərziklər ilə bəzənərlər. Rəbbi onlara çox pak bir su içirdər. Doğurdan da «bu sizin mükafatınızdır və zəhmətiniz qiymətləndirilir.»

Təfsirçilərin əksəriyyəti yazırlar: Bu ayələr Həzrət Əli, Həzrət Fatimə, Həzrət Həsən, Həzrət Hüseyn və onların xadiməsi Fizzə xanımın şənində nazil olmuşdur.

Xatırladaq ki, «İhqaqul-həqq» kitabının 3-cü və 9-cu cildində 150-dən çox (təkcə) sünni rəvayətləri gətirilmişdir ki, yuxarıdakı ayələrin adlarını zikr etdiyimiz şəxslərin şənində nazil olmasına dəlalət edirlər. Biz isə bu məzmunda onlarla sünni mənbələrində yazılmış rəvayətlərdən yalnız bir rəvayəti nəzərinizə çatdırırıq:

Böyük əhli sünnət təfsirçisi olan Alusi, İbni Abbasdan mötəbər sənəd ilə nəql edir:

«Həsən və Hüseyn xəstələnmişdilər. Onların babaları Muhəmməd (s) Əbu Bəkr və Ömər ilə birlikdə Həsən və Hüseynin görüşünə gəldilər. Başqa səhabələr də, onların görüşünə gəlmiş idilər. Onlar Əliyə (Allah onu əziz etsin) dedilər: Ey Əbul Həsən, övladlarının şəfa tapması üçün nəzr et!

Əli, Fatimə və onların xadiməsi Fizzə onların şəfa tapması üçün üç gün şükür orucu tutmağı nəzr etdilər.

Uca Tanrı Həsən və Hüseynə şəfa bəxş etdi. Onlar nəzr etdilkəri oruclarını tutmaq istəsələr də, iftar etmək üçün evlərində heç bir şey yox idi. Əli (ə) vəziyyəti belə gördükdə Yəhudi Şəmun Xeybərinin yanına gedib bir miqdar arpa borc aldı və Fatimənin (Allah ondan razı olsun) yanına gəldi. Fatimə ayağa qalxıb arpadan un düzəltdi və beş nəfər ev sakinlərinin adına xəmir yoğurdu. Əli şam namazını Peyğəmbər (s) ilə məsciddə qıldıqdan sonra evə qayıtdı. Çörəklər bişmişdi. Hamı bir yerə yığışıb iftar açmaq istədi. Lakin elə bu anda bir yolçu onların qapılarına yaxınlaşıb dedi: "Salam olsun sizə ey Muhəmmədin (s) Əhlibeyti! Mən bir yoxsul müsəlmanam, mənə yemək verin. Tanrı sizə behişt yeməkləri əta etsin!»



Onlar çörəklərini yoxsula verib öz iftarlarını su ilə açdılar. Və gecəni belə keçirtdilər. Sabahkı gün də bu şəkildə oruc tutdular. Fatimə yenə də ayağa qalxıb iftar üçün çörək bişirdi. Əli Peyğəmbər (s) ilə şam namazını məsciddə qılıb evə qayıtdıqdan sonra süfrə quruldu. Süfrəyə çörəklər gəldiyi zaman bir nəfər qapını döyüb dedi: «Salam olsun sizə ey Muhəmmədin (s) Əhli-beyti! Mühacir övladlarından olan bir yetiməm. Mənə yemək verin. Allah da sizə behişt təamlarından versin!»

Onlar öz çörəklərini yetimə verib, bu gecəni də fəqət su ilə iftar etdilər.

Onlar üçüncü gün də nəzr etdikəri orucu tutmağa davam etdilər. Fatimə (Allah ondan razı olsun) son qalan arpadan un düzəldib çörək bişirdi. Əli(Allah ondan razı olsun) yenə də Peyğəmbər ilə şam namazını məsciddə qılıb evə qayıtdı. Elə ki, süfrə açıldı və çörəklər süfrəyə gəldi, bu anda bir əsir onların qapılarına yaxınlaşıb dedi: «Salam olsun sizə ey Muhəmmədin (s) Əhli-beyti! Mən bir əsirəm, mənə ehsan edin ki, Allah da sizə ehsan etsin!»

## PEYĞƏMBƏRIMIZ (s) ON İKİ İMAMın (ə) adını dəqiq olaraq təsdiqləmişdi



Cabir ibn Abdullah əl-Ənsari buyurur: "Allah Təala öz Peyğəmbəri Muhəmmədə (s) "Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!" ayəsini nazil etdikdən sonra, Allahın Rəsuluna (s) dedim: "Allahı və Onun Rəsulunu (s) tanıyırıq, bəs o əmr sahibləri ki, Allah onlara itaət etməyi özünə itaət kimi hesab etmişdir, kimlərdir?". Həzrət Peyğəmbər (s) cavab verdi: "Ey Cabir, onlar mənim xəlifələrimdir, məndən sonra müsəlmanların rəhbərləridir. Onların birincisi Əli ibn Əbu Talib (ə), sonra Həsən və Hüseyn (ə), Əli ibn Hüseyn (ə), sonra Muhəmməd ibn Əli (ə) – Tövratda "Baqir" ləqəbi ilə adlandırılmışdır. Cabir, sən onu görəcəksən. Onu görəndə məndən ona salam yetir. Sonra Cəfər ibn Muhəmməd (ə), sonra Musa ibn Cəfər (ə), Əli ibn Musa (ə), Muhəmməd ibn Əli (ə), Əli ibn Muhəmməd (ə), sonra Həsən ibn Əli (ə), sonra isə adı və künyəsi mənim ad və künyəmlə eyni olan, Allahın yer üzündəki xəlifəsi və bəndələrinin içərisində nümayəndəsi olan (Mehdi) İbn Həsən ibn Əlidir.

O, həmin şəxsdir ki, Allah Təala onun əliylə Şərq və Qərbi fəth edəcək.

O, həmin şəxsdir ki, öz şiələrindən və dostlarından qeybə şəkiləcək. Bu zaman onun imamlığına ancaq o şəxslər qail olacaqlar ki, Allah onların qəlblərini iman üçün boşaltmışdır"".

Digər hədisdə İbn Abbas buyurur: "Nəsəl adlı bir yəhudi Həzrət Peyğəmbərin (s) yanına gəlib dedi: "Ey Muhəmməd, (s) istəyirəm ki, zehnimdə dolaşan bəzi şeylər barədə səndən sual edim. Mənə öz canişinin barədə xəbər ver. Kimdir o? Çünki, elə bir peyğəmbər (ə) yoxdur ki, onun vəsisi olmasın. Bizim peyğəmbərimiz olan Musa ibn İmranın vəsisi Yuşə ibn Nun idi".

Həzrət Peyğəmbər (s) buyurdu: "Bəli. Mənim vəsim və sonrakı xəlifə Əli ibn Əbu Talibdir. (ə) Ondan sonra iki nəvəm Həsən (ə) sonra isə Hüseyn (ə) – vəsidirlər. Daha sonra Hüseynin (ə) sülbündən olan doqquz əməlisaleh İmam (ə) – mənim vəsilərimdir".

"Ey Muhəmməd, (s) onların adlarını mənə de!".

"Bəli, Hüseynin (ə) imamət müddəti bitəndən sonra onun oğlu Əli (ə) imam olacaq. Əlidən (ə) sonra onun oğlu Muhəmməd (ə), Muhəmməddən (ə) sonra onun oğlu Cəfər (ə), Cəfərdən (ə) sonra onun oğlu Musa (ə), Musadan (ə) sonra onun oğlu Əli (ə), Əlidən (ə) sonra onun oğlu Muhəmməd (ə), sonra onun oğlu Əli (ə), sonra onun oğlu Həsən (ə), sonra isə Həsənin (ə) oğlu Huccət (ə) (İmam Mehdi) İmam olacaq. Onlar Bəni-İsrailin rəhbərləri qədər – on iki İmamdırlar".

"Onların cənnətdəki məkanları bəs necədir?".

"Mənimlə eyni dərəcədə olacaqlar"".

# Bu 4 vaxtda dua etməkdən qafil olmayın!

Allah-taala biz müsəlmanlara dua etməyi tövsiyə etmişdir və hər kim dua etməz, Uca Allah onu müşrik adlandırmışdır. Dua etməyin xüsusi zaman və məkanlarını bizə tanıtmışdır ki, dualarımız daha tez yerinə yetə bilsin. Bu zamanlardan biri də yağış yağan zamandır. Quran ayələrindən və hədislərdən belə nəticə çıxartmaq olur ki, yağış yağan zaman İlahi rəhmətin qapıları açılar. Ona görə də bu zaman edilən dualar səmaya qalxar və Allaha çatar.

Allah buyurur: "Məni çağıran zaman dua edənin duasını qəbul edirəm". ("Bəqərə" 186).

"Rəbbiniz buyurdu: «Məni çağırın ki, Mən də duanızı qəbul edim. (Dua etməyi özünə sığışdırmamaq ibadəti özünə sığışdırmamaq deməkdir və) əlbəttə, Mənə ibadət etməyi özünə sığışdırmayanlar tezliklə xar və xəcalətli şəkildə cəhənnəmə daxil olacaqlar»". ("Ğafir" 60).

Dua əslində Allahdan istəməkdir. Dinimizdə dua ibadət sayılır. Duanın qəbul olmasının şərtləri və şəraitləri vardır. Allah Taəal buyurur ki, Məndən istəyin ki, sizə verim. Ancaq insan Allahdan elə şeyləri istəməlidir ki, onun xeyirinə olsun, ziyanına deyil. İnsan Allahdan mümkün olan şeyləri istəməlidir. Bəzən biz elə dualar edirik ki, onun nə qədər ziyanlı olduğunu dərk etmirik. Ona görə də Allah bizim bu dualarımızı yerinə yetirmir.

Yuxarıda qeyd etdiyimiz kimi, duanın xüsusi zamanları vardır ki, onlardan biri də yağış yağan zamandır. İmam Sadiq (ə) buyurur:"İmam Əli (ə) hər il yağan ilk yağışda onun altında qərar tutardı, o zamana qədər ki, başı, saqqalı, paltarı yaş olardı. O zaman ki, Həzrətdən (ə) xahiş edirlər ki, islanmamaq üçün tavanın altına girsin, buyurardı: "Bu, o sudur ki, Allahın ərşinə yaxındır"".

İmam Sadiq (ə) buyurur: "Dörd vaxtda duanın ardınca olun: külək əsən zaman, kölgələr itən zaman (zöhr zamanı), yağış yağan zaman və şəhidin ilk qanı tökülən zaman. Çünki bu vaxtlarda səmanın qapıları açılar".

İmam Əli (ə) buyurur: "Dua etməyi beş vaxtda qənimət bilin: Quran oxuyan zaman, azan oxunan zaman, yağış yağan zaman, iki ordunun şəhadət üçün üz-üzə gəldiyi zaman, məzlumun dua etdiyi zaman ki, hicablar ərşdən götürülər".

İmam Sadiq (ə) İmam Əlidən (ə) nəql edir ki, buyurub: "Duanı dörd halda qənimət bilin: Quran oxuyan zaman, azan deyən zaman, yağış yağan zaman, o zaman ki, iki ordu cihad üçün üz-üzə gələr".

İmam Sadiq (ə) buyurur: "Üç vaxt vardır ki, onda duanın yerinə yetməsi üçün Allah tərəfində manea və hicab olmaz: vacib namazdan sonra edilən dua, yağış yağan zaman edilən dua, Allahın qüdrətinin yer üzündə təbiətin ziddinə nişanələrinin zahir olduğu zaman edilən dua".

# HƏZRƏT İMAM HÜSEYNDƏN (Ə) KƏLAMLAR

* (ALLAH rızasına xatir deyil), ALLAHı qəzəbləndirməklə, xalqı razı salanlar nicat tapmaz.

*. İnsanların çoxu dünya quludurlar. Din isə dillərində gəzir. Din sayəsində yaşadıqları müddətdə onu müdafiə edirlər. İmtahan zamanı gəlib çatdıqda isə dindarlar azalır.

* Əgər dünya qiymətli bir ev sayılsa: ALLAHın mükafat evi ondan əla və üstündür. Əgər bədənlər ölmək üçün yaranmışlarsa: Onda ALLAH yolunda qılıncla ölmək daha yaxşıdır. Əgər ruzi ALLAHın verdiyi qismətdirsə: Ruzi qazanmaq üçün tamahın azlığı daha yaxşıdır. Əgər sərvət toplamaq onu qoyub getmək üçündürsə: Niyə azad insan bu sərvətə paxıllıq edir?

* Bilin ki, insanların sizə olan ehtiyacları ALLAHın sizə verdiyi nemətlərindən biridir. ALLAHın nemətlərindən üz döndərməyin yoxsa, sonra o nemətlər sizə müsibət olar.

* Dostun səni pis işlərdən çəkindirən, düşmənin isə səni bu işlərə təşviq edən adamdır.

* Bir nəfər İmam Hüseyn (ə)ın yanına gəlib deyir: Mən günahkar bir adamam, günah qarşısında müqavimət göstərməyə gücüm çatmır, mənə nəsihət et. İmam Hüseyn(ə) buyurdu: 5 əməli yerinə yetir, sonra istədiyin günahı et. 1-ALLAHın ruzisini yemə, istədiyin günah işi gör. 2-ALLAHın mülkündən və hakimiyyət sərhədlərindən kənara çıx, istədiyin günah işi gör. 3-Bir yerə get ki, ALLAH səni görməsin və istədiyin günah işi gör. 4-Əzrail canını almağa gələndə onun qarşısını al və istədiyin günahı gör. 5-Qiyamət günü cəhənnəmin maliki səni cəhənnəmə aparmaq istədikdə, cəhənnəmə getmə və istədiyin işi gör.

* Üzr istəməli olan işləri görməkdən çəkin, çünki mömin nə günah iş görər, nə də üzr istər. Münafiq və iki üzlü hər gün günah edər və üzr istər.

* İnsani keyfiyyətləri əldə etmək üçün yarışın və mənəvi dəyərləri ələ gətirmək üçün fürsəti fövtə vermədən bir-birinizlə yarışın.

* Ən səxavətli insan odur ki, bir kəs ondan (bir şey) gözləmədiyi halda, ona ehsan edə.